“Bələdiyyələrin əraziləri və torpaqları haqqında” Azərbaycan Respublikasının Qanununa Əlavə – “Azərbaycan Respublikasında bələdiyyələrin siyahısı”nda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 3-cü bəndini rəhbər tutaraq **qərara alır:**

“Bələdiyyələrin əraziləri və torpaqları haqqında” Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 12, maddə 689 (Cild I); 2024, № 11, maddə 1186) Əlavə – “Azərbaycan Respublikasında bələdiyyələrin siyahısı”nın “Quba rayonu” bölməsində aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 2-1-ci və 5-1-ci hissələr əlavə edilsin:

2-1.	Bəhrəli-Çinarlı bələdiyyəsi	Bəhrəli, Çinarlı, İqrığ, Qacar Zeyid və Zizik kəndləri

5-1.	Elbir bələdiyyəsi	Ağbil, Aşağı Atuc, Dəlləkli, Elbir, Əlibəyqışlaq, Mirzəməmmədkənd və Susayqışlaq kəndləri

2. 17-ci və 20-ci hissələr ləğv edilsin.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 oktyabr 2026-cı il
№ 493-VIIQD